**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 262/6** **04 may 2015-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna (IFIAR) üzvlüyə qəbul edilməsi barədə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatımızın hər bir sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində həyata keçirdiyi tədbirlərin icrası ilə əlaqədar, Azərbaycan Respublikası Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna üzvlüyə qəbul edilməsi barədə Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin (S.Gülməmmədov) məlumatını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna (IFIAR) üzvlüyə qəbul edilməsi məqsədəuyğun hesab edilsin.

**2.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna üzv olması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**